**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**GÜLBƏNİZ QURBAN qızı HÜSEYNOVA**

# TƏLƏBƏLƏRİN YENİDƏNTƏRBİYƏYƏ EHTİYACI OLAN YENİYETMƏLƏRLƏ TƏLİM-TƏRBİYƏ İŞİNƏ HAZIRLANMASI

**5804.01 - Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi**

Pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2018**

Dissertasiya işi Gəncə Dövlət Universitetinin Ümumi pedaqogika kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Akif Nurağa oğlu Abbasov**
*pedaqogika üzrə elmlər doktoru,*
*professor, Əməkdar müəllim*

**Rəsmi opponentlər:** **Fərrux Abbas oğlu Rüstəmov**
*pedaqogika üzrə elmlər doktoru,*
*professor, Əməkdar elm xadimi*

**Məmməd Salman oğlu Kazımov**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

**Aparıcı təşkilat:** **Bakı Slavyan Universitetinin**
**Pedaqogika və psixologiya kafedrası**

Müdafiə «13» noyabr 2018-ci il tarixdə saat $16^{00}$-da Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən FD02.061 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Az - 1000. Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 68, ADPU, Əsas bina, Kiçik akt zalı.

Dissertasiya ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Kitabxana – İnformasiya Mərkəzində tanış olmaq mümkündür.

Avtoreferat «______» oktyabr 2018-ci ildə göndərilmişdir.

**Dissertasiya Şurasının**
**elmi katibi:** **R.Z. HÜMBƏTƏLİYEV**
*riyaziyyat üzrə elmlər doktoru, dosent*

## TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Problemin aktuallığı.** Yenitetmələrin Vətənimizə layiq vətəndaşlar kimi yetişməsində, həyati bilik və bacarıqlara, savada, mədəniyyətə, geniş dünyagörüşünə yiyələnmələrində təhsilin müstəsna dərəcədə böyük rolu vardır. Heç də təsadüfi deyildir ki, 1999-cu ildən başlayaraq ölkəmizdə təhsil islahatı həyata keçirilməyə başlamışdır. İstər "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı", istər "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu, istərsə də "Azərbaycan Respublikasında Təhsilin inkişafı üzrə Dövlət Strategiyası" təhsilimizin qarşısında mühüm vəzifələr qoymuşdur. Lakin bu vəzifələr heç də yalnız şagirdləri, tələbələri, əhalinin digər təbəqələrini biliklərlə əhatə etməklə məhdudlaşdır, tərbiyə məsələlərini daha ciddiyyətlə gündəmə gətirir. Yeni pedaqoji təfəkkürün tələbi belədir ki, təhsilalanlar saysız-hesabsız bilik və məlumatlarla yüklənməsin, onlara öyrənməyi öyrətmək, eyni zamanda şəxsiyyətlərinin formalaşdırılması, mənəvi keyfiyyətlərinin inkişaf etdirilməsi, əxlaqlarının saflaşdırılması, mənəviyyatının zənginləşdirilməsi qayğısına qalmaq, onların milli dəyərlərimiz, adət və ənənələrimiz ruhunda tərbiyələndirmək lazımdır.

Yeniyetmə və gənclərimiz öz hərtərəfli inkişafları, elmlərin əsaslarına möhkəm yiyələnməklə, davranış nümunəsi, təlim nailiyyəti göstərməklə cəmiyyətə sevinc gətirirlər. Fəqət yeniyetmələr arasında elələri vardır ki, onların təlimə və öz davranışlarına, insanlarla münasibəti ciddi narahatlıq doğurur. Həmin yeniyetmələri çox vaxt "çətin" yeniyetmələr adlandırırlar.

Ulu öndər Heydər Əliyev hələ vaxtilə yeri gəldikcə, şagirdlər, o cümlədən yeniyetmələr arasında özünü büruzə verən mənfi halları qeyd edərək, həmin halların aradan qaldırılması məqsədilə lazımi tədbirlərin görülməsini məqsədəuyğun sayırdı. Ümummilli liderimiz deyirdi: "Gənclərin tərbiyəsi işində, onların mənəviyyatının formalaşmasında, həyat fəaliyyəti üçün hazırlanmasında buraxılan səhvlərə gərək yol verməyək, gənclər doğru yola getsinlər, həyatda öz yerini düzgün tapa bilsinlər, həm özləri üçün, həm də onları böyüdən valideynləri üçün, həm də cəmiyyətləri, xalq üçün, dövlət üçün faydalı ola bilsinlər".

Yeniyetmələr nəzarətdən, tərbiyəvi təsirlərdən kənarda qala bilməzlər. Onları vaxtında aşkara çıxarıb yenidəntərbiyəsi ilə məşğul olmaq lazımdır. Bu sahədə ailənin və məktəbin üzərinə mühüm vəzifələr düşür.

Ailə və məktəb yenidəntərbiyəyə ehtiyacı olan yeniyetmələrin tərbiyəsində birgə hərəkət etsələr səmərəli nəticələrə nail ola bilərlər. Tədqiqatda biz üçüncü bir qüvvənin – təcrübəçi tələbələrin bu işə qoşulmasını məqsədəuyğun hesab edirik.

Ali təhsil müəssisələrinin bakalavriat mərhələsində təhsil alan tələbələr orta ixtisas və ali məktəblərdə yenidəntərbiyəyə ehtiyacı olan yeniyetmələrlə təlim-tərbiyə işinə hazırlanmalıdır. Bu sahədə Pedaqogika, Sosial pedaqogika, Psixologiya, Pedaqoji psixologiya və Sosial psixologiya fənləri mühüm rol oynaya bilər.

"Çətin" yeniyetmə problemi, dissertasiyada nəzərdən keçirdiyimiz mövzu ilə bağlıdır. Yenidəntərbiyə işi "çətin" deyilən yeniyetmələr arasında aparılır. Hələ 1983-cü ildə prof. A.N. Abbasov, 1986-cı ildə isə, hüquq elmləri namizədi A. Kərimov "Şagirdlərin hüquq tərbiyəsi" adlı kitabların nəşrinə nail olmuşlar. Bu problem son dərəcə aktualdır və özünün hərtərəfli tədqiqini tələb edir. "Çətin" yeniyetmələri yenidən tərbiyə etmək, onların mənəvi inkişafındakı uğursuzluqları aradan qaldırmaq müəllimin, yaxud valideynin tez görə bilmək bacarığından, onu düzgün müəyyənləşdirməkdən, vaxtlı-vaxtında lazımi tədbir görməyindən xeyli dərəcədə asılıdır.

A.N. Abbasov, S.M. Tokova, A.K. Qulov, T.N. Arxipova öz tədqiqatlarını şagirdlərin hüquq tərbiyəsində məktəb, ailə ictimaiyyətin əlbir işinə həsr etmişlər. S.A. Mehdiyev isə, öz tədqiqatında yeniyetmələrin pedaqoji baxımsızlığının və hüquq pozğunluqlarının qarşısının alınması və aradan qaldırılmasında məktəb və həddi-büluğa çatmamışların işləri üzrə inspeksiyaların qarşılıqlı fəaliyyətini əhatə etmişdir.

Göründüyü kimi, tədqiqatçılar tələbələrin yenidəntərbiyəyə ehtiyacı olan yeniyetmələrlə təlim-tərbiyə işinə hazırlanması problemini özlərinin tədqiqat obyekti kimi seçməmişdir.

Yeniyetmənin həyat tərzində, davranış və rəftarında, şəxsiyyətlərarası münasibətlərində yol verdiyi nöqsanlar nə qədər tez aşkar olunarsa, həmin qüsurların qarşısını aılmaq bir o qədər asan başa gələr. Lakin bir sıra hallarda valideynlər və pedaqoji kollektivlərin üzvləri, o cümlədən fənn müəkkimləri, sinif rəhbərləri, praktik psixoloqlar, tərbiyə işləri üzrə direktor müavini, uşaq birliyinin rəhbəri, gənclər təşlilatının sədri yeniyetmələrin davranışındakı, qarşılıqlı münasibətlərindəki xoşagəlməz və narahat doğuran hallara bəzən vaxtından gec reaksiya verir.

Problemin aktuallığı nəzərə alınaraq dissertasiya mövzusu aşağıdakı kimi müəyyənləşdirildi: "Tələbələrin yenidəntərbiyəyə ehtiyacı olan yeniyetmələrlə təlim-tərbiyə işinə hazırlanması"

**Tədqiqatın obyekti** – tələbələrin yenidəntərbiyəyə ehtiyacı olan yeniyetmələrlə aparılan təlim-tərbiyə işinə hazırlanması prosesi.

**Tədqiqatın predmeti** - tələbələrin yenidəntərbiyəyə ehtiyacı olan yeniyetmələrlə apardıqları təlim-tərbiyə işləri.

**Tədqiqatın məqsədi** - tələbələrin yenidəntərbiyəyə ehtiyacı olan yeniyetmələrlə təlim-tərbiyə işinə hazırlanması üzrə işlərin əsas istiqamətlərini işləyib hazırlamaq və aparılan işlərin yeniyetmə şəxsiyyətinin formalaşmasına təsirini müəyyənləşdirməkdir.

Tədqiqat zamanı aşağıdakı **fərziyyə** irəli sürülmüş və eksperimentdən keçirilmişdir:

-yenidəntərbiyəyə ehtiyacı olan yeniyetmələrlə ümumtəhsil məktəblərində, ailələrdə məqsədyönlü, sistemli, planauyğun, fasiləsiz təlim-tərbiyə işləri həyata keçirilərsə;

-pedaqoji təcrübədə iştirak edən ali məktəb tələbələri bu işə cəlb edilərlərsə;

-yenidəntərbiyəyə ehtiyacı olan yeniyetmələrin fərdi, cinsi və yaş xüsusiyyətləri, temperament tipləri müəllimlər və təcrübəçi tələbələr tərəfindən diqqətlə öyrənilərsə və nəzərə alınarsa;

-yeniyetmələrin tərbiyəsində yol verilən nöqsanlar müəyyən edilərək qruplaşdırılarsa və onların düzəldilməsi istiqamətində səmərəli tədbirlər planlaşdırılarsa;

-məktəbin, ailənin və təcrübəçi tələbələrin əlbir və sistemli fəaliyyəti həmin qüsurların profilaktikasına və aradan qaldırılmasına xidmət edərsə və fərdi yanaşma bu sahədə özünə layiqli yer tutarsa;

-yenidəntərbiyə işinin prinsip və metodlarından, vasitələrindən, təşkili formalarından və priyomlarından səmərəli istifadə edilərsə - yenidəntərbiyəyə ehtiyacı olan yeniyetmələr nümunəvi davranış və rəftara, müsbət mənəvi keyfiyyətlərə yiyələnər, intizamlı olar, özünütəhsil və özünütərbiyə ilə məşğul olarlar.

Tədqiqatın məqsədinə və irəli sürülən fərziyyəyə uyğun olaraq aşağıdakı **vəzifələr** müəyyənləşdirilmişdir:

1. Yeniyetmələrin yenidəntərbiyəsi üzrə işin nəzəri əsaslarına aydınlıq gətirmək.

2. Yeniyetmələrin yenidəntərbiyəsi prosesini pedaqoji-psixoloji problem kimi nəzərdən keçirmək.

3. Yeniyetməlik yaşında davranışdan kənaraçıxmaların mahiyyətini, xüsusiyyətlərini, tiplərini və formalarını işləmək.

4. Uğursuz ailənin yeniyetməyə mənfi təsirini deviant davranışının meydanagəlmə səbəbi kimi diqqət mərkəzinə çatdırmaq.

5. Problem üzrə elmi ədəbiyyatı öyrənmək və təhlilini aparmaq.

6. Ali məktəbdə mühazirə və seminar məşğələlərində tələbələrin yenidəntərbiyəyə ehtiyacı olan yeniyetmələrlə təlim-tərbiyə işlərinə hazırlanma imkanlarını araşdırmaq.

7. Ümumtəhsil məktəblərində pedaqoji təcrübə zamanı tələbələrin yenidəntərbiyəyə ehtiyacı olan yeniyetmələrlə apardıqları təlim-tərbiyə işlərinə aydınlıq gətirmək.

8. Təlim-təhsil prosesində yeniyetmələrdə deviant davranışın profilaktikasının pedaqoji şərtlərini müəyyənləşdirmək.

9. Eksperimentin təşkili, aparılması, nəticələri barədə təsəvvür yaratmaq.

**Tədqiqatın metodoloji əsasını** pedaqoji fakt, hadisə və proseslərin dərk olunması və dəyişdirilməsi məqsədilə tətbiq olunan nəzəri müddəaların, metod və vasitələrin məcmusu təşkil edir.

Araşdırmalar zamanı istifadə olunan tədqiqat metodları aşağıdakılardan ibarət olmuşdur: nəzəri təhlil, pedaqoji müsahibə, pedaqoji müşahidə, riyazi-statistik metodlar, sənədlərin öyənilməsi, pedaqoji eksperiment.

Eksperimentin müəyyənləşdirici, öyrədici və yoxlayıcı mərhələlərindən istifadə edilmişdir. Eksperiment 2011-2018-cü illərdə Gəncə şəhərinin 1, 2. 5 və 15 məktəblərində, Gəncə Dövlət Universitetində aparılmışdır. Məsələlər təhlil, tərkib, müqayisə, ümumiləşdirmə, mücərrədləşdirmə, konkretləşdirmə, sistemləşdirmə (təsnifat) kimi tədqiqat metodlarının köməyilə araşdırılmışdır.

**Tədqiqatın elmi yeniliyi** ondan ibarətdir ki, respublikada tələbələrin yenidəntərbiyəyə ehtiyacı olan yeniyetmələrlə təlim-tərbiyə işinə hazırlanması nəzəri və təcrübi problem kimi tədqiq edilir.

**Tədqiqatın praktik əhəmiyyəti**. Dissertasiyada öz ifadəsini tapmış iş sistemi yenidəntərbiyəyə ehtiyacı olan yeniyetmələrlə aparılan işləri səmərəli qurmaqda təcrübəçi tələbələrə, ümumtəhsil məktəblərinin pedaqoji kollektivlərinə və valideynlərə əməli kömək göstərərcəkdir.

**Tədqiqatın nəzəri əhəmiyyəti** ondan ibarətdir ki, dissertasiyada irəli sürülən fikirlər, elmi ideyalar tərbiyə nəzəriyyəsini zənginləşdirəcəkdir.

**Müdafiəyə aşağıdakı müddəalar çıxarılır:**

1. Yenidəntərbiyəyə ehtiyacı olan yeniyetmələrlə təlim-tərbiyə işləri pedaqoji, psixoloji və sosial problemdir.

2. Yenidəntərbiyəyə ehtiyacı olan yeniyetmələrlə ailənin, ümumtəhsil məktəblərinin başladığı işin pedaqoji kollektivlərinin təlim-tərbiyə işləri təcrübəçi tələbələr tərəfindən davam etdirilməsi səmərəli nəticələr verir.

3. İnstitut və universitetlərdə mühazirə və seminar məşğələlərində, həmçinin auditoriyadankənar tədbirlərdə tələbələrlə mədsədyönlü, maarifləndirici, sistemli, planauyğun işlər onları yenidəntərbiyəyə ehtiyacı olan yeniyetmələr arasında səmərəli təlim-tərbiyə işləri aparmalarına və yüksək nəticələr əldə etmələrinə imkan və şərait yaradır.

**Tədqiqatın nəticələrinin tətbiqi.** Aparılmış eksperimentin nəticələri Gəncə şəhərinin 19 və 20 nömrəli məktəblərində sınaqdan keçirilmiş və müsbət nəticələr əldə edilmişdir.

**Tədqiqatın aprobasiyası.** Dissertasiyanın məzmunu, başlıca elmi ideyaları və alınan nəticələri Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının məsləhət bildiyi jurnallarda nəşr olunmuş 6 jurnal məqaləsində (o cümlədən 1 məqalə xaricdə), respublika və beynəlxalq konfransların materiallarında verilmiş 2 tezisdə öz əksini tapmışdır,

**Dissertasiyanın quruluşu.** Tədqiqat işi girişdən, 9 yarımfəsli əhatə edən üç fəsildən, nəticədən və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**Girişdə** problemin aktuallığı əsaslandırılmış, işlənmə səviyyəsi, tədqiqatın obyekti, predmeti, məqsəd və vəzifələri, fərziyyəsi, metodoloji əsasları, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, müdafiəyə çıxarılan müddəalar öz əksini tapmışdır.

Dissertasiyanın **birinci fəsli "Yeniyetmələrin yenidəntərbiyəsi üzrə işin nəzəri əsaslar**" adlanır. Bu fəsil dörd yarımfəsildən ibarətdir.

Fəslin **"*Yeniyetmələrin yenidəntərbiyəsi pedaqoji-psixoloji və sosial problem kimi*"** adlanan birinci yarımfəslində aşağıdakı məsələlərə diqqət yetirilir. Pedaqoji təcrübədə nəinki tərbiyə ilə, həm də yenidəntərbiyə ilə məşğul olmaq lazım gəlir. Belə zərurət yeniyetmənin

davranışında pis adətlər baş verdikdə, mənfi motivasiya və şəxsiyyətin müvafiq yönümü formalaşdıqda meydana çıxır. Bu kimi hallarda, adətən çətin yeniyetmə, yaxud asossial davranışlı yeniyetmələr barədə söz açılır. Prof. A.N. Abbasova görə, "Yenidəntərbiyə" dedikdə, tərbiyəçinin uşaqda təşəkkül tapmış yanlış mühakimə, mülahizə, baxış, əqidə və qiymətləndirmənin, habelə şəxsiyyətin formalaşması prosesinə əngəl törədən davranış təcrübəsinin dəyişdirilməsinə yönəldilmiş məqsədəuyğun, mütəşəkkil, planlı və sistemli fəaliyyət nəzərdə tutulur.

Tərbiyəyə nisbətən yenidəntərbiyə daha çətin və uzunsürən prosesdir. Bir yandan şagirddə özünü göstərən mənfi hallar aradan qaldırılır, digər tərəfdən müsbət keyfiyyətləri inkişaf etdirilir".

Fikrimizcə, yenidəntərbiyə naqis (yanlış) tərbiyənin xoşagəlməz təsiri altında formalaşan mənfi xüsusiyyətlərin aradan qaldırılmasına yönələn tərbiyə prosesi deməkdir.

Mövcud ədəbiyyatda yenidəntərbiyəyə ehtiyacı olan yeniyetmələrin aşağıdakı bölgüsünü aparmışlar: ünsiyyət sahəsində pozuntulara yol verənlər; yüksələn, yaxud azalan emosional reaksiyalarla fərqlənənlər; yalnız birtərəfli əqli inkişafda olanlar; iradi keyfiyyətləri yanlış inkişaf edənlər".

Ailə tərbiyəsində bir çox nöqsanlar vardır ki, onlar yenidəntərbiyəyə ehtiyacı olan yeniyetmələrin meydana çıxmasına və onların başqalarına meydan oxumalarına imkan verir. Həmin nöqsanları diqqət mərkəzinə gətirək:

1. Yeniyetmənin xarakter xüsusiyyətlərini müəllimin səthi bilməsi; yeniyetmənin xarakterindəki mürəkkəbliyi və özünəməxsusluğu səhvən çətin tərbiyəlilik kimi qəbul edilməsi;

2. Hədə, cəza, valideynlərə şikayət etməklə yeniyetməyə təzyiq göstərərək, onun müqavimətini qırmağa cəhd.

3. Valideynlərin müəllimlərlə; yaxud yeniyetmənin müəllimlərlə münaqişəli münasibətləri və s.

Ailə və məktəb tərəfindən tərbiyə prosesinin təkmilləşdirilməsi, yuxarıda göstərilən tipik səhvlərin aradan qaldırılması çox vaxt şəxsiyyətin mənəvi aləmində müsbət cəhətlərin intensiv inkişafına səbəb olur.

Yenidəntərbiyəyə ehtiyacı olan yeniyetmələrlə iş aşağıdakı hallarda uğurlu ola bilər: müəllim, yaxud valideyn köhnə əlaqələrin davam etməsinin qarşısını məcburən, zor tətbiq etməklə deyil, təhsilalanların şüuruna təsir göstərərək, onu inandıraraq alır, onu şagird kollektivinin tamhüquqlu üzvü edir, kollektivin ictimai həyatının iştirakçısına çevirir.

Yenidəntərbiyəyə ehtiyacı olan yeniyetməni sinfin, məktəbin şagird kollektivindən təcrid etmək, idman, dərnək və s.-də iştirakına yol verməmək onun sinifdən xaricdə, məktəbdən kənarda – küçədə, məhəllədə əlaqələr yaratmasına və o kollektivə, qrupa qoşulmasına səbəb olur.

Ailə yenidəntərbiyənin ümumi strategiyasına yiyələnməli, ailədaxili münasibətlərin xarakterini müsbət mənada dəyişməli, öz övladına daha çox diqqət yetirməli, onun faydalı əyləncələrinə, uğurlarına dəyər verməlidir.

Məktəbdə də bu şagirdə, yenidəntərbiyəyə ehtiyacı olan yeniyetməyə münasibət dəyişməli, o, kollektivin ümumi işinə cəlb edilməlidir.

Fəslin ikinci yarımfəsli ***"Uğursuz ailənin yeniyetməyə mənfi təsiri deviant davranışının meydanagəlmə səbəbi kimi"*** adlanır. Göstərilir ki, ata-ana ilk tərbiyəçilərdir. Uşaqların sonrakı taleyi valideynlərin səriştəliliyindən çox asılıdır. İstər övladlarının Vətənin ləyaqətli vətəndaşları kimi tərbiyə almalarında, istər cəmiyyətə zidd hərəkətlərə aludə olmalarında, istərsə də cinayət yoluna düşməsində də müəyyən mənada ata-analar da günahkar olurlar. Yenidəntərbiyəyə ehtiyacı olan yeniyetmələrlə iş xeyli çətin və çoxmərhələlidir. Odur ki, ailədə uşaq və yeniyetmələrin tərbiyə işi xüsusi yanaşma tələb edir.

Ata-anaların pedaqoji baxımdan səriştəsizliyi, pedaqoji maariflənmə ilə əhatə olunmamaları, valideynlər arasında ixtilafların olması, uşaqların tərbiyəsi ilə əlaqədar ailə üzvləri arasında vahid tələbin olmaması, tərbiyədən və yeniyetməni şəxsiyyətinin inkişafından ötrü zəruri şəraitin yaradılmaması, valideynlərin etik qaydaları gözləməmələri, onların öz davranışlarındakı, rəftar və ünsiyyətlərindəki xoşagəlməz hallar uşağa pis təsir göstərir, onun düzgün tərbiyə almasına maneçilik törədir. Bundan başqa, ailədə əxlaq və ictimai münasibət normalarına uyğun gəlməyən sərvət və normalar sisteminin təşəkkül tapması və s. uşaq və yeniyetmələrin tərbiyə olunmasını çətinləşdirir.

Uşaqlar "çətin" və "asan" olaraq doğulmurlar. Bu normal uşaqlar sonradan "çətin" olurlar. Yenidəntərbiyəyə ehtiyacı olan uşaq və yeniyetmələr böyüklərin onlara münasibətinin nəticəsi kimi meydana gəlirlər. Onların çoxu ünsiyyət tələbatı ailədə, və təhsil aldığı məktəbdə təmin olunmayan yeniyetmələrdir. Çətin uşaqlar nadinc, sözə baxmayan, tənbəl, inadkar, intizamsız, kobud, yalançı, asosial olurlar. Yeniyetmə özünü pis aparırsa, pedaqoji təsirlərə

laqeyd qalırsa, deməli, onunla qarşı tərəflər arasında müəyyən anlaşılmazlıqlar yaranmışdır.

Mütəxəssislər yenidəntərbiyəyə ehtiyacı olan, başqa sözlə "çətin" yeniyetmələrin 4 qrupuna diqqət yetirirlər: "1) davranışındakı qüsurları onun iradi-emosional inkişaf səciyyəsi ilə şərtlənən yeniyetmə; 2) pedaqoji cəhətdən baxımsız və nəticədə əxlaqi təsəvvürlərə yiyələnməyən yeniyetmə; 3) əlverişli olmayan inkişaf şəraiti və ya tərbiyəçinin düzgün iş apara bilməməsinin təsiri ilə çətin böyüyən yeniyetmə; 4) uyğun gəlməyən münasibətlərlə şərtlənən və yaxud xüsusi çətin tərbiyə alanlar".

Valideynlər tərbiyəli, əxlaqlı, yüksək mənəviyyatlı, geniş dünyagörüşünə, savada, nümunəvi davranışa malik oğul və qızlar tərbiyələndirmək üçün övladlarını öyrənməli, onun imkanları, fərdi müxtəlifliyi, arzu və istəkləri, meyilləri, əyləncələri, dostlarının, yoldaşlarının kim olduğu ilə maraqlanmalı, müstəqilliyinin qarşısını almamalıdır. Onları düşdükləri çətin vəziyyətdən onu çıxarmaq üçün ata-ana müəyyən güzəştlərə də getməli, qarşılıqlı anlamanın yaranmasına, onun keçirdiyi yaşantılara bələd olmağa çalışmalıdır. Əks təqdirdə, ailədə qayğını, diqqəti görməyən, bunun əvəzində laqeydlik hiss edən yeniyetmə özünə dəstəyi kənar mühitdə axtarmalı olur. Bu "kənar mühit"in mənəvi-psixoloji atmosferinin necə olması isə, valideynə sirr kimi qalır.

Yenidəntərbiyə yeniyetmə şəxsiyyətinin mənfi xüsusiyyətlərinin profilaktikasına və aradan qaldırılmasına xidmət edir və aşağıdakı kateqoriyalardan olan yeniyetmələri əhatə edir: 1) "çətin" tərbiyə olunan; 2) pedaqoji cəhətdən özbaşına buraxılmış; 3) hüquq qaydalarını pozan yetkinlik yaşına çatmamışlar; 4) yeniyetmə cinayətkarlar.

Yenidəntərbiyəyə ehtiyacı olan yeniyetmələrin deviant davranışının formalarına aiddir: təhsildən yayınmaq, istər valideynin, istərsə də müəllimin, sözünə baxmamaq, insanlarla, o cümlədən həmyaşıdları ilə kobud və rəhmsiz davranmaq, yüksək səviyyəli aqressivlik, tüfeylilik, avaraçılıq, erkən cinsi həyata başlamaq, xuliqanlıq, oğurluq, narkotikə, spirtli içkilərə qurşanmaq, siqaret çəkmək, fahişəlik, kriminal qruplarda əlaqədə olmaq, vandalizm və s. Daha çox fiziki və psixoloji cəhətdən sağlam olmayan yeniyetmələr deviant davranış nümayiş etdirirlər.

Beləliklə, uğursuz ailələrlə məqsədyönlü, sistemli, fasiləsiz iş aparılmalıdır ki, onların yeniyetmələrə təsirini neytrallaşdırmaq mümkün olsun. Pis təsir altında olan yeniyetmənin yenidəntərbiyəsi diqqət mərkəzində durmalı, bütün tərbiyə təsisatları yeniyetmənin həyatın fərəhli yollarına çıxmasına kömək göstərməlidirlər.

Fəslin ***“Sosial mühit yeniyetmələrdə deviant davranışın meydanagəlmə formalarına və səviyyələrinə təsir amili kimi”*** adlanan üçüncü yarımfəslində aşağıdakı məsələlər diqqət mərkəzinə gətirilir:

Yenidəntərbiyəyə ehtiyacı olan pedaqoji cəhətdən baxımsız yeniyetmələr üçün küçə və məhəllə mühiti çox zaman asudə vaxtın keçirilməsindən ötrü əlverişli məkan sayılır. Nümunəvi davranışlı və yaxşı oxuyan məktəblilərə nisbətən davranışı qüsurlu olan və dərslərini oxumayan yeniyetmələrin boş vaxtları daha çox olur. Bu, təbiidir. Axı onlar dərs hazırlamağa vaxt sərf etmir, necə gəldi gəzib-dolaşırlar. Belə məktəblilər təhsil müəssisəsindən kənarda sıx birləşirlər. Məktəb və sinif kollektivində öz yerlərini görmür, təriflənən şagirdlərə qaynayıb-qarışa bilmirlər. Bu səbəbdən də “asan” və “çətin” yeniyetmələrin qarşılıqlı münasibətləri alınmır. Qeyri-formal, kortəbii qrup ailənin və məktəbin təsirindən kənarda qaldığından yeniyetmədə maraq oyadır öz “Mən”ini təsdiq etmək üçün həmin qruplarda təmsil olunmağa çalışır.

Kortəbii qrupu adi qruplardan fərqləndirən bir sıra əlamətlər vardır. Əsas problem ümumi məqsədin nədən ibarət olmasında, yenidəntərbiyəyə ehtiyacı olan yeniyetmələrin hansı fəaliyyət əsasında birləşməsində və həmin qrupun son məqsədinin öz ifadəsini nədə tapdığında, bu qruplardan hansı birinin cəmiyyət və ölkə vətəndaşlarından ötrü faydalı olmasındadır.

Yeniyetmələr eyni vaxtda bir neçə məktəbdənkənar qrupa daxil ola bilirlər. “Çətin” adlandırılan uşaqlar isə, yalnız birində - kortəbii, qeyri-mütəşəkkil, qeyri-formal qrupu seçir. Üzərlərində nəzarətin olmadığını görən yenidəntərbiyəyə ehtiyacı olan yeniyetmələr bir qrupda birləşir və fəaliyyət göstərirlər. Bu, kortəbii qrup olur.

Beləliklə, yuxarıda göstərdiyimiz kimi, özünün xarakterinə görə, kortəbii qrupun, iki forması diqqət mərkəzinə gəlir: birincisi ciddi narahatlığa əsas vermir. Yenidəntərbiyəyə ehtiyacı olan yeniyetmələr birlikdə dərdləşmək, öz vaxtlarını bildikləri kimi keçirmək, çayxanaya, gəzintiyə, kinoya, bara, restorana, pivəxanaya, idman bölmələrində məşğul olmağa getmək və s. üçün bir yerə toplanırlar.

Haqqında danışılan tip kortəbii qrup üzvləri onlar üçün yaşayış yerlərində təşkil olunan tədbirlərdə yaxından və könüllü iştirak edirlər.

Qeyri-formal qrupun birinci formasının müsbət rolu ondadır ki, o həm özünütəsdiqdə və seçici ünsiyyətdə uşaq və yeniyetmələrin tələbatlarına cavab verir, eyni zamanda onların müstəqilliyini təmin edir.

Yeniyetmə kortəbii qrupun fəaliyyətində fəal iştirak edirsə, qrup və onun üzvləri yeniyetmə şəxsiyyətinin formalaşmasına müsbət təsir edir.

Bir çox hallarda "çətin" yeniyetmə təlimdə yetirmədiyi üçün qeyri-formal qrup ünsiyyəti onun üçün hətta təlim prosesini əvəz etmək vəzifəsini də daşıya bilir. Yuxarıda deyilənləri kortəbii qrupun ikinci formasına aid etmək çətindir. Bu qrup ciddi narahatlıqla müşayiət olunur. Qrup üzvləri hüquq normalarını, birgəyaşayış qaydalarını, qanunun tələblərini pozmağa meyillidirlər. Onlar cəmiyyətə yabançı həyat tərzi keçirir, cinayət əməllərinə yol verir, oğurluq edir, siqaret çəkir, narkotik maddələr qəbul edir, içki içir, qumar oynayırlar.

Gənclər təşkilatı, respublikamızın şəhər və rayonlarında fəaliyyət göstərən məktəbdənkənar müəssisələr – uşaq yaradıcılıq evləri və sarayları uşaq kinoteatrları, uşaq kitabxanaları, uşaq-gənclər idman məktəbləri, gənc texniklər və gənc təbiətçilər stansiyaları, yaşayış yerlərindəki yeniyetmə klubları, ictimaiyyət nümayəndələri "çətin" uşaqların həyat tərzinə, davranış və rəftarına laqeyd olmamalı, düzgün istiqamət verməli, onlarla iş aparmalıdır.

Qanunpozan yeniyetmələr və "çətin" uşaqlar arasında profilaktik işlərin aparılması rayon (şəhər) polis idarələrinin yetkinlik yaşına çatmayanların işləri üzrə müfəttişliyin vəzifəsidir. Həm də müfəttişlik yeniyetmə artıq cinayət törətdikdə, qanunu, birgəyaşayış qaydalarını pozduqda köməyə gəlməməlidir. Məktəb mikrorayonunu nəzarətdə saxlamalı, ailənin və məktəbin fəal və yaxın köməkçisi, şagirdlərin məsləhətçisi və dostu olmalıdır. Məktəb və ailə də müfəttişliyə öz köməyini göstərməlidirlər. Bu işə pedaqoji təcrübə keçən tələbələr də cəlb edilməlidirlər.

Yarımfəsildə nəzərdən keçirilən məsələlərlə bağlı aşağıdakı qənaətə gəlmək olar: yeniyetmələrin kortəbii qrupuna laqeyd qalmaq olmaz. Ailə, məktəb, ümumtəhsil məktəblərində pedaqoji təcrübə keçən tələbələr, yetkinlik yaşına çatmayanların işləri üzrə müfəttişliklər, ictimaiyyət öz səylərini əlaqələndirməli, kortəbii qrupun yeniyetmə şəxsiyyətinə mənfi təsirini neytrallaşdırmalı və aradan qaldırmalıdır.

I fəslin dördüncü yarımfəsli ***"Yeniyetmələrdə deviant davranışın meydanagəlmə formalarına və səviyyələrinə məktəb mühitinin təsiri"*** adlanır.

Qabaqcıl, təcrübəli müəllimlər, pedaqoji kollektivin öz işinə məsuliyyətlə yanaşan bir çox üzləri onları nəzərə alsalar da, bəziləri heç də həmin prinsiplərə əməl etmirlər. Öz pedaqoji fəaliyyətini yalnız yaxşı və

əla qiymətlərlə oxuyan məktəblilər arasında iş aparmaqda görən və məqsədinə çatdığını, buna görə hörmət və nüfuz qazandığını fikirləşən müəllimlər səhv edirlər. Müəllimlik məharətinə təkcə dərs demək, əlaçı şagirdlər yetişdirmək deyil, eyni zamanda nümunəvi davranışlı, əxlaqca saf və mənəviyyatlı şəxsiyyətlər tərbiyələndirmək daxildir. Bu, vəzifə - fəal vətəndaş mövqeyinə malik nəsil yetişdirmək, şagird şəxsiyyətini formalaşdırmaq məktəbin son dərəcə mühüm vəzifəsidir.

Pedaqoji ədəbiyyatla tanışlıqdan görünür ki, tərbiyənin prinsipləri arasında "fərdi, yaş və cinsi xüsusiyyətlərin hesaba alınması", "nikbinlik", "tərbiyədə hörmət və tələbkarlıq" və "tələblərdə vahidliyin gözlənilməsi" kimi mühüm prinsiplər var. Nikbinlik prinsipi – şagirdin (ailədə uşağın) müsbət cəhətlərinə əsaslanmaqla onun qüsurlarının aradan qaldırılmasını; tərbiyədə hörmət və tələbkarlıq prinsipi -"şagirdin şəxsiyyətinə hörmətlə düzgün tələbkarlığın uzlaşdırılmasını; tələblərdə vahidliyin gözlənilməsi prinsipi – ailə üzvlərinin uşağa, yeniyetməyə, məktəbdə pedaqoji kollektiv üzvlərinin məktəbliyə, V-IX sinif şagirdlərinə müxtəlif tələblərin deyil, eyni tələblərin verilməsini və bundan başqa, ailə və məktəbin tələblərində fərqin olmamasını nəzərdə tutur. Həmçinin fərdi, yaş və cinsi xüsusiyyətlərin hesaba alınması prinsipi təhsilalanlarla, yeniyetmələrlə iş apararkən onun fərdi xüsusiyyətlərinə əsaslanmaq, yaşını və cinsini hesaba alaraq ona yanaşmağı tələb edir. Yenidəntərbiyəyə ehtiyacı olan yeniyetmələrlə söhbətlər, anket sorğuları göstərdi ki, istər ailədə, istərsə də məktəbdə həmin prinsiplərin tələbləri bir sıra hallarda gözlənilmir.

Tərbiyənin inandırma, alışdırma, nümunə, rəğbətləndirvə və cəzalandırma kimi metodları vardır ki, onların da düzgün, yerli-yerində tətbiqi lazım bilinir. Fəqət sorğulardan görünür ki, "çətin" deyilən uşaqlara münasibətdə həmin metodlardan da düzgün istifadə olunmur. Bəzi valideynlərin, bəzi müəllimlərin özləri nümunə göstərməyi bacarmır.

Dissertasiyanın **ikinci fəsli** "**Tələbələrin yenidəntərbiyəyə ehtiyacı olan yeniyetmələrlə təlim-tərbiyə işinə nəzəri və praktik cəhətdən hazırlanması**" adlanır.

Fəsil iki yarımfəsildən ibarətdir: Birinci yarımfəsil ***"Ali məktəbdə təlim prosesində tələbələrin yenidəntərbiyəyə ehtiyacı olan yeniyetmələrlə aparılacaq işlərə hazırlanması"*** adlanır.

İnstitut və universitetlərdə keçilən bir çox fənlərin təhsilalanların yenidəntərbiyəsi baxımından imkanları vardır. Dissertasiyada ali məktəblərdə tədris olunan bəzi fənlərin, o cümlədən pedaqogika və psixologiya fənlərinin proqram və dərslikləri problem baxımından təhlil

edilmişdir. Bu fənlər üzrə mühazirə və seminar məşğələlərinin tələbələri yenidəntərbiyəyə ehtiyacı olan yeniyetmələrlə sinifdənxaric tədbirlərə hazırlaması imkanlarını öyrənilmişdir.

Ali təhsil müəssisələrinin pedaqoji təmayüllü fakültələrinin tələbələrinin müəllim peşəsinə nəzəri və praktik cəhətdən hazırlanmalarında pedaqogika və psixologiya fənləri geniş imkanlara malikdir. Haqqında danışılan məsələlərlə dissertasiyada daha yaxından tanış olmaq mümkündür.

Fəslin ikinci yarımfəsli "***Ali məktəbdə auditoriyadankənar tədbirlərin gedişində tələbələrin yenidəntərbiyəyə ehtiyacı olan yeniyetmələrlə aparılacaq işlərə hazırlanması***" adlanır.

Ali məktəblər öz fəliyyətlərini, tələbələrlə işi təkcə mühazirələri, seminar və praktik məşğələləri, imtahanları, bakalavriat buraxılış işlərinin və magistr dissertasiyalarının müdafiəsini təşkil etməkə məhdudlaşdırmır, eyni zamanda onların öz asudə vaxtlarını səmərəli, məzmunlu, maraqlı keçirmələri qayğısına da qalırlar. Bu məqsədlə maraq və meyilləri, istəkləri, təşəbbüskarlıqları nəzərə alınmaqla auditoriyadankənar tədbirlər həyata keçirilir ki, bu zaman həm gənclərin müstəqillikləri təmin olunur, həm də təşkilatçılıq bacarıqlarını, istedad və qabiliyyətlərini nümayiş etdirmələri üçün şərait yaradılır.

Tədqiq etdiyimiz problem baxımından eksperimentə cəlb edilmiş ali məktəblər və akademik qruplar üzrə auditoriyadankənar tədbirlər təşkil olunarkən iki cəhət xüsusilə diqqət mərkəzində dayanırdı:

1. Tələbələrin özülərində yüksək mənəvi keyfiyyətlərin inkişaf etdirilməsi.
2. Onların şagirdlərlə, o cümlədən yeniyetmələrlə təlim-tərbiyə işlərinə hazırlanmaları.

Birinci halda auditoriyadankənar tədbirlərin təşkilatçıları (bunlar tələbələrin özləri də, gənclər təşkilatı, akademik qrupların kuratorları, tərbiyə işləri üzrə prorektor, dekanların tərbiyə işləri üzrə müavinləri, fənn müəllimləri, tələbə özünüidarə orqanlar və b. ola bilərlər) təhsilalanların hiss və duyğularına, mənəvi şüuruna təsir etməklə onların müsbət keyfiyyətlərini inkişaf etdirir, onların yaxşı oxumalarına, mühazirə və seminar məşğələlərinə hazırlıqlı gəlmələrinə, nümunəvi davranmalarına, geniş fünyagörüşünə yiyələnmələriə, Vətənin ləyaqətli övladları və yaxşı mütəxəssis kimi yetişmələrinə nail olurdular. Eksperimentə iştirak edən ali məktəblərdə auditoriyadankənar tədbirlərin təşkil olunarkən kəmiyyətdən

daha çox, keyfiyyət diqqət mərkəzində dayanırdı. Başqa sözlə, tədbirlərin saqı deyi, onların tələbələrə müsbət təsir göstərə biləcəyinə çalışırdılar.

Qeyd etdiyimiz kimi, eyni zamanda tələbələrin şagirdlərlə, o cümlədən yeniyetmələrlə təlim-tərbiyə işlərinə hazırlanmalarına fikir verilirdi. Bu, çox vacib məsələ idi. Ali məktəbdə təhsil alanda qazandıqqları nəzəri bilikləri tətbiq etmək üçün tələbələrə şərait, geniş auditoriya lazım olur. Ümümtəhsil məktəbləri, uşaq bağçaları belə auditoriya rolunu oynayır. Burada onlar dərs də keçirlər, şagirdlərin tərbiyəsi ilə də məşğul olur, hətta sinif müəllimi, sinif rəhbəri funksiyasını da yerinə yetirirlər. Bunun üçün isə, təbii ki, nəzəri cəhətlə yanaşı, praktik bacarıq və vərdişlərə yiyilənmələri tələb olunur. İnstitut və universitetlərdə audutoriyadankənar vaxtlarda onlarla bu istiqamətdə də işlər aparılır. İlk növbədə ümumtəhsil məktəbinin Nizamnaməsi ilə tanış olurlar. Tələbələr həmin Nizamnaməni, yaxud onun surətini qabaqcadan əldə edirlər. Söhbət zamanı sənəd onların qarşılarında olur ki, Nizamnamənin ayrı-ayrı bəndlərində söhbətin nədən gedtiyi, haxsı məsələlərin öz ifadəsini necə yapdığı onlara məlum olsun.

Təhsilə aid olan bu sənədlərlə, Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin imzaladığı Sərəncamlarla, respublika Nazirlər Kabinetinin müvafiq qərarları, Təhsil Nazirliyi kollegiyasının əmr və qərarları ilə tələbələr ali məktəbdə mühazirə, seminar və praktik məşğələlərində yeri gəldikcə tanış edilsələr də, həmin sənədləri eyni zamanda auditoriyadankənar tədbirlərində daha geniş və ətraflı şəkildə, diqqətlə nəzərdən keçirirlər ki, öz pedaqoji fəaliyyətlərin lazımi surətdə qura bilsinlər.

Ali məktəb tələbələrinin ixtisas üzrə istehsalat (pedaqoji) təcrübə müddətində və gələcəkdə müəllim işləyərkən şagirdlər, o cümlədən yeniyetmələr, xüsusən yenidəntərbiyəyə ehtiyacı olan məktəblilər arasında təlim-tərbiyə və sinifdənxaric işləri təşkil edib keçirmələri üçün onlar həm də təşkilatçılıq bacarıq və qabiliyyətlərinə sahib olmalıdırlar. Buna nail olmaq üçün "Pedaqoji biliklər" və "Psixoloji xidmət" kabinetlərinin - imkanlarından, fakultativ və praktik məşğələlərdən istifadə etmək mümkündür. Bütün bunlarla yanaşı, "asan" və "çətin" şagirdlərlə, yenidəntərbiyəyə ehtiyacı olan yeniyetmələrlə təlimin və sinifdənxaric işin təşkili ilə əlaqədar təşkilatçılıq qabiliyyətlərinin aşılanması və inkişaf etdirilməsi o vaxt səmərəli nəticələnir ki, tələbələrdə müəllimlik peşəsinə, peşə-pedaqoji fəaliyyətə istək və həvəs olsun.

Pedaqoji və psixoloji ədəbiyyatda müəllimin təşkilatçılıq qabiliyyətinə yiyələnməsinə başlıca tələblərdən biri kimi yanaşılır. Bu, bir həqiqətdir ki, müəllim, eyni zamanda təcrübəçi tələbə təlim, tərbiyə və təhsil vəzifələrinin həyata keçirilməsinə təşkilatçılıq qabiliyyətinə malik olmaq sayəsində nail olmaq mümkündür.

Dissertasiyanın **üçüncü fəsli "İxtisas üzrə istehsalat (pedaqoji) təcrübə dövründə tələbələrin yenidəntərbiyəyə ehtiyacı olan yeniyetmələrlə təlim-tərbiyə işləri"** adlanır.

Bu fəsil üç yarımfəsildən ibarətdir. Fəslin birinci yarımfəsli ***"Təlim prosesində tələbələrin yenidəntərbiyəyə ehtiyacı olan yeniyetmələrlə apardıqları təhsil-tərbiyə işləri"*** adlanır.

Yarımfəsildə, ilk növbədə ümumtəhsil məktəblərində təlim prosesində təcrübəçi tələbələrin V-IX siniflərdə apardıqları təhsil-tərbiyə, yenidəntərbiyə işlərinə diqqət yetirilir. Ümumtəhsil məktəblərdə tədris olunan fənlərin proqramlarına əsasən, öyrənilən mövzular sistemlə, bilik və məlumatlar arasında varisliyə əməl olunmaqla şagirdlərə çatdırılır. Beləliklə, məktəbdə təlim prosesi, ayrı-ayrı fənlər üzrə mövzular zəngin imkanlar açır.

Ümumtəhsil məktəbində keçilən bir çox fənlərin təhsilalanların yenidəntərbiyəsi baxımından imkanları vardır. Dissertasiyada Azərbaycan tarixi, ədəbiyyat və s. fənlərinin proqram və dərslikləri təhlil olunmuşdur.

Təlim prosesində təcrübəçi tələbələr yeniyetmələrin tərbiyəsi və yenidəntərbiyəsi məqsədilə müsbət nümunələrdən istifadə edirdilər. İlk növbədə gələcəyin müəllimi və bir şəxsiyyət kimi özləri nümunə göstərirdilər. Belə ki, geyimlərinə, davranışlarına, rəftar və nitqlərinə fikir verir, şagird-təcrübəçi tələbə münasibətlərini düzgün qurur, yeniyetmələrə həssaslıqla, nəzakətlə yanaşır, sinfdə anlaşılmazlıq olduqda, intizamı pozan şagird meydana çıxdıqda məsələlərə tolerantcasına yanaşır, fərdi xüsusiyyətlərinə, temperament tiplərinə əsasən məktəblilərlə qarşılıqlı münasibətlər yaradırdılar.

İkincisi, görkəmli insanların nümunəsində yeniyetmələri tərbiyələndirməyə üstünlük verirdilər.

Belə ki, Azərbaycan tarixi fənni üzrə dərslərdə Cavanşir, Tomris, Babək, Şirvanşah I İbrahim, Sara xatun, Uzun Həsən, Şah İsmayıl Xətayi, Cavad xan, Səttarxan, Şeyx Məhəmməd Xiyabani, Seyid Cəfər Pişəvəri, Heydər Əliyev, İlham Əliyev nümunəsi zəngin imkanlar açırdı.

Ədəbiyyat dərslərində Nizami Gəncəvi, Məhəmməd Füzuli, Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Azundzadə, Cəlil

Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Cəfər Cabbarlı, Mikayıl Müşfiq, Səməd Vurğun, Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürk, İsmayıl Şıxlı, Mehdi Hüseyn, Mirzə İbrahimov və b. bu kimi tanınmış şair və yazıçıların həyatı, fəaliyyəti, xidmətləri və yaradıcılığı nümunələri əsasında həm təlimin təhsilləndirici, inkişafetdirici və tərbiyələındirici vəzifələrini yerinə yetirir, digər tərəfdən yeniyetmələrin tərbiyəsini təşkil edirdilər.

Vətəndaşların hüquq və azadlıqları ilə tanış olan yeniyetmələr həmin hüquqların və azadlıqların eyni zamanda onlara da aid olduğu qənaətinə gəlirlər.

Yarımfəsildə həm də tələbələrin yenidəntərbiyəyə ehtiyacı olan yeniyetmələri öyrənmələri diqqət mərkəzində dayanılır. Ali pedaqoji təhsilin bakalavriat mərhələsində tələbələr auditoriyada mühazirələrdə iştirak edərək və seminar məşğələlərində frontal və fərdi sorğuya cəlb olunaraq, seminar məşğələsinin müxtəlif növlərində - seminar-disput, seminar-sorğu, seminar yoxlama işi, seminar-tədqiqat, seminar-nəzəri konfrans, seminar-diskussiya, seminar-referat və s.-də fəallıq göstərməklə pedaqoji qabiliyyətlərə, seçdikləri ixtisaslar üzrə nəzəri və praktik etdirməkdə məlumatlara yiyələnməklə yanaşı onların tərbiyəsi qayğısına da qalınır. Eyni zamanda gələcəkdə ümumtəhsil məktəblərində müəllim kimi fəaliyyətə başlayanda və öz fəaliyyətlərini davam etdirəndə şagirdlərin tərbiyəsi kimi mühüm vəzifəni də yerinə yetirəcəklər. Odur ki, mühazirə və seminar məşğələlərində, xüsusən pedaqogika və psixologiyanın tədrisi zamanı onlara tərbiyə, özünütərbiyə və yenidəntərbiyə və onların məqsəd və vəzifələri, qanun və qanunauyğunluqları, prinsip və metodları, tərbiyə, özünütərbiyə və yenidəntərbiyənin təşkilinin formaları və həyata keçirilməsinin səmərəli yolları, barədə məlumatlar verilir, hələ ali məktəb auditoriyasında tələbələr tərbiyə, özünütərbiyə və yenidəntərbiyənin təşkili metodikasına yiyələnirlər.

Lakin müstəqil müəllim kimi fəaliyyətə başlayana qədər onlar bilik və bacarıqlarını artıq tətbiq etmiş, özlərini sınamalı olurlar. Bu, təhsil illərində ümumtəhsil məktəblərində pedaqoji təcrübə keçdikləri dövrə düşür. Onlar siniflərə təhkim olunur, ixtisasları üzrə dərs keçir, eyni zamanda sinifdənxaric tədbirlərin təşkilində sinif rəhbərlərinə, sinif müəllimlərinə, kitabxanaçıya, tərbiyə işləri üzrə məktəb direktorunun müəlliminə, praktik psixoloqa kömək edirlər. Lakin tərbiyə işlərini səmərəli qurmaq, yaxşı nəticələr almaq üçün sinfin şagirdlərinin tərbiyəlilik

səviyyəsinə bələd olmaq, ayrı-ayrı şagirdlərin fərdi xüsusiyyətlərinin, maraq və meyillərini, arzu və istəklərini bilmək lazımdır.

Eksperimentə cəlb edilmiş tələbələr pedaqoji təcrübə dövründə siniflər üzrə bu yeniyetmələri aşkara çıxarır, pedaqoji etikanın tələblərini ciddi şəkildə gözləyərək və həmin şagirdlərə son dərəcə həssaslıqla, nəzakət və mərifətlə yanaşaraq, onların asudə vaxtlarını səmərəli, şən və mənalı, məzmunlu keçirməyə çalışırdılar. Çətin uşaqları öyrənmək əsasında tələblər onlarının yönəlmələrinin aşağıdakı tipik səviyyələrini müəyyən etmişdilər:

1. Yönəlmə qeyri-sabitdir. Yeniyetmə gələcəyi barədə düşünmür. Onun üçün bu günkü gün daha əhəmiyyətlidir. Məmnunluq hazırkı zamanla bağlıdır. O, adətən vəd edir, fəqət öz vəzifələrini yerinə yetirməyə cəhd göstərmir.

Bu dövründə müəllimlər, qonşular, həmyaşıdlar, valideynlər, ətrafdakı digər şəxslərlə yeniyetmələrin ünsiyyəti, davranış və rəftarı, qarşılıqlı münasibətləri bu uşaqların "daha artıq böyümüşəm" təsəvvürünün təsiri altında təşəkkül tapmağa başlayır. Xeyirxah işin marağında deyil, öz uğursuzluğuna əhəmiyyət vermir, müxtəlif əyləncələrdə özü üçün qəlb sakitliyi tapa bilir. Tez bir zamanda yad təsirlərə uyur. Əhvalı tez-tez dəyişir.

Rahatlıq, dinclik tapdığı, məmnunluq duyduğu hər şey onun üçün yaxşı hesab olunur. Yeniyetməyə görə, o şey pisdir ki, ona istədiyi kimi yaşamaqda mane olur. Davranış motivləri situativ və ziddiyyətlidir.

2. Özünə yönəlmə. Xudpənsənddir. Hər şeydən əvvəl yalnız özü, özünün rahatlığı, məmnunluğu barədə düşünür. Daha sonra kiminlə münasibət qurmaq ona sərfəlidirsə həmin şəxs yadına düşür. Başqalarını əhəmiyyətli hesab etmir.

Yeniyetməyə ailənin, məktəbin və sinfin tam hüquqlu üzvü olmaq hissini duymaq imkanı verilməlidir. Şərait və isti mühit, normal atmosfer və rahat münasibətlər sistemi yaradılmalıdır ki, yeniyetmə özünün məktəbə və ailəyə, cəmiyyətə lazım olduğunu anlasın.

3. Üçüncü yönüm. Yeniyetmə ixtilaflı xarakterə malikdir. Mənəvi aləmdə yaxşı, pis və bədxahlıq arasında mübarizə gedir, yaxşı və pis hərəkətlər növbələşir.

4. Dördüncü yönüm sırf mənfi xarakter daşıyır. Yeniyetmə özünü xüsusi şəxsiyyət hesab edir, bütün nöqsanlarını özünə bağışlayır; belə qüsurlara yol verənlərə qarşı isə intolerantdır; kollektivin rəyi ilə

hesablaşmır, əksinə, öz nəzarətinə götürməyə çalışır, kollektivdə elə mühitin yaranmasını istəyir ki, bildiyini eləyə bilsin.

Yeniyetmənin yönəlmə səviyyəsinin müəyyənləşdirilməsi müxtəlif yollarla həyata keçir:

1. Yeniyetməni əhatə edən insanların, onunla müxtəlif münasibətlərdə olan müəllimlərin, valideynlərin, həmyaşıdlarının qiymətləndirməsindən asılı olaraq tərtib olunan səciyyələndirmələr, şəxsi və ictimai işlərə üstünlük verilən seçim situasiyalarından istifadə.

Məsələn, yeniyetmə yarışda, yaxud şəxsi və yaxud qrup birinciliyində iştirak edə bilər o, təkbaşına, yaxud kollektivlə birlikdə iməcilikdə iştirak edə bilər.

3. İdman oyunlarının gedişini müşahidə etməkdən istifadə: yeniyetmələr özlərinin, yaxud digər komandanın qaydalarının pozulmasına necə yanaşırlar; hakimin iradlarına özü necə baxır, öz komandasının qapısına, yaxud rəqib komandasının qapısına qol vurulanda buna necə münasibət bəsləyir, mənfi, yaxud müsbət?; komandası məğlub olanda buna görə təəssüf hissi keçirirmi, yoxsa laqeyd qalır? və s.

4. Verilən tapşırıqların yerinə yetirilməsinə dair hesabat: hansıları həvəslə yerinə yetirir, hansıları xoşlamır, tapşırıqların yerinə yetirilməsi zamanı hansı motivləri rəhbər tutur? və s.

Çətin tərbiyə olunan yeniyetmələrin diaqnostikası zamanı yeniyetmənin yönəlmə növünün aşkara çıxarılması birinci və başlıca məsələdir. Bu, elə minimal məlumat, təəssüratdır ki, bunsuz çətin yeniyetməyə heç bir təsir səmərəli olmur. Diaqnostikanın ikinci obyekti – çətin yeniyetmənin insanlara, özünə, mühitə və tərbiyəyə münasibətidir.

III fəslin ikinci yarımfəsli ***"İxtisas üzrə istehsalat (pedaqoji) təcrübə dövründə tələbələrin yenidəntərbiyəyə ehtiyacı olan yeniyetmələrlə sinifdənxaric təhsil-tərbiyə işlər"*** adlanır.

Gələcəyin pedaqoji peşə sahiblərinin pedaqoji təcrübə keçmələri vacib şərtdir. İnstitut və universitet auditoriyalarında onların təkcə nəzəri bilik və məlumatlara yiyələnmələri hələ müəllim hazırlığının yüksək səviyyəsindən xəbər vermir. Ümumtəhsil məktəblərində keçdikləri pedaqoji təcrübə tələbələrdən ötrü, sınaq meydanı, özünü təsdiqetmə imkanı kimi nəzərdən keçirilə bilər. Burada onlar məktəblilər, o cümlədən yeniyetmələr və yenidəntərbiyəyə ehtiyacı olan yeniyetmələrlə təlim-tərbiyə işlərini, sinfdənxaric tədbirləri hazırlanıb həyata keçirirlər. Bu zaman öz bilik və bacarıqlarını nümayiş etdirir, təşkilatçılıq qabiliyyətlərini göstərirlər.

Sinifdənxaric işin təşkili formalarına, prinsiplərinə, metod və vasitələrinə, həyata keçirilməsinin səmərəli yollarına hansı səviyyədə yiyələndikləri ortaya çıxır.

Tələbələrin ali təhsil müəssisəsində qazandıqları nəzəri biliklərin İxtisas üzrə (pedaqoji) təcrübə pedaqogika və psixologiya, müvafiq fənlərin (tələbənin seçdiyi ixtisasın) tədrisi metodikası ali məktəb kursları üzrə materiallar tələbələr tərəfindən mənimsənildikdən, başqa sözlə, mühazirə və seminar məşğələləri başa çaydıqdan sonra təşkil edilir.

Pedaqoji təcrübənin səmərəli nəticələnməsi onun nəzəri və praktik cəhətdən əsaslandırılmış olmasından, tələbələr və eyni zamanda yeniyetmələr, xüsusən "çətin" adlandırılan uşaqlar üçün təhsilləndirici, inkişafetdirici və tərbiyəedici səciyyəyə malık olmasından xeyli dərəcədə asılıdır. Bu vaxt tələbələrin yiyələndikləri biliklər genişlənir, möhkəmlənir və təkmilləşir, məktəblilərlə, o cümlədən yeniyetmələrlə tərbiyə və yenidəntərbiyəyə işləri aparmaqla özləri də nümunəvi davranışlarına, yüksək mədəniyyətlərinə, pedaqoji etikanın tələblərini gözləmələrinə görə fərqlənir, özlərini böyüyən nəslin qayğıkeşi, məsləhətçisi və himayəçisi kimi aparır, təşkilatçılıq qabiliyyətlərini artırırlar.

Eksperimental siniflərdən olan tələbələr ixtisas üzrə istehsalat (pedaqoji) təcrübə keçdikləri müddətdə şagirdlərlə, o cümlədən yeniyetmələrlə, xüsusən "çətin" məktəblilərlə təlim prosesinin təşkilində, sinfin və şagirdlərin idarə olunmasında və sinifdənxaric işin planlaşdırılmasında yaxından iştirak edirdilər.

Yeniyetmələrin "çətinliyinin" səbəblərinin öyrənilməsi və aradan qaldırılmasının səmərəli yolları barədə düşünmək işi bütün təcrübə müddətində davam edir. Yeniyetmələrin öyrənilməsi sahəsində məqsədyönlü iş pedaqoji prosesin planlaşdırılmasında nəzərə alınır.

III fəslin üçüncü yarımfəsli ***"Eksperimentin təşkili, aparılması, nəticələri"*** adlanır.

Eksperimentin təşkili, aparılması, nəticələri geniş şəkildə dissertasiyada öz əksini tapmışdır. Avtoreferatın həcmi imkan vermədiyindən yalnız təcrübəçi tələbələrlə aparılan sorğunun nəticələrini avtoreferata daxil etdik.

**Eksperimental və kontrol siniflərə təhkim olunmuş təcrübəçi tələbələrin yenidəntərbiyəyə ehtiyacı olan yeniyetmələrlə işə hazırlıq səviyyələrini əks etdirən göstəricilər**

**Cədvəl 1.**

| Sıra № | Bizi maraqlandıran məsələlər | Səviyyələr | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | yüksək (nəfərlə) | | orta (nəfərlə) | | Zəif (nəfərlə) | |
| | | eks. | kont. | eks. | kont. | eks. | kont. |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
| 1. | Nəzəri hazırlığı var | 14 | 10 | 9 | 10 | 2 | 6 |
| 2. | Metodik hazırlığa yiyələnib | 13 | 11 | 11 | 8 | 1 | 7 |
| 3. | Təlim texnologiyalarından xəbərdardır və onları tətbiq edə bilir | 11 | 9 | 10 | 12 | 4 | 5 |
| 4. | Pedaqoji etikaya yiyələnib | 15 | 12 | 9 | 11 | 1 | 3 |
| 5. | Tərbiyə işinin metodikasına bələddir | 14 | 8 | 8 | 10 | 3 | 8 |
| 6. | Təşkilatçılıq qabiliyyəti var | 12 | 11 | 11 | 11 | 2 | 4 |
| 7. | Təşəbbüskarlıq göstərir | 15 | 10 | 9 | 9 | 1 | 7 |
| 8. | Yaradıcılıq qabiliyyətinə malikdir | 13 | 10 | 8 | 10 | 4 | 6 |
| 9. | Yeniyetmələrin müstəqilliyini nəzərə alır | 13 | 9 | 11 | 9 | 1 | 8 |
| 10. | Yeniyetmələrin idrak fəallığının inkişaf etdirilməsi qayğısına qalır | 12 | 9 | 10 | 11 | 3 | 6 |
| 11. | Yeniyetmələrin təşkilatçılıq qabiliyyətlərini inkişaf etdirir | 13 | 11 | 10 | 12 | 2 | 3 |
| 12. | Müəllim-şagird münasibətlərini düzgün qurur | 16 | 13 | 9 | 11 | - | 2 |

Cədvəl 1-in ardı

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
|---|---|---|---|---|---|---|---|
| 13. | Sinifdənxaric işləri düzgün planlaşdırır | 16 | 14 | 8 | 9 | 1 | 3 |
| 14. | Sinir rəhbəri vəzifəsini həyata keçirir | 17 | 12 | 8 | 12 | - | 2 |
| 15. | İxtisası üzrə dərsləri keçməyi bacarır | 14 | 11 | 9 | 13 | 2 | 1 |
| 16. | Kommunikativ qabiliyyətlərə malikdir | 13 | 9 | 11 | 9 | 1 | 8 |
| 17. | Məktəb pedaqoji kollektivin üzvləri ilə qarşılıqlı münasibətləri qurur | 18 | 14 | 7 | 9 | - | 3 |
| 18. | Yenidəntərbiyəyə ehtiyacı olan yeniyetmələrlə iş aparmağı bacarır | 17 | 11 | 8 | 11 | - | 4 |
| 19. | Yeniyetmələrin "çətin" olmasının səbəblərini aşkara çıxara bilir | 15 | 12 | 9 | 9 | 1 | 5 |
| 20. | Yenidəntərbiyəyə ehtiyacı olan yeniyetmələri məktəbdə aktiv fəaliyyətə cəlb edir | 14 | 10 | 10 | 10 | 1 | 6 |
| 21. | "Çətin" yeniyetmələrin özünütərbiyə işini təşkil edir | 16 | 13 | 9 | 11 | - | 2 |

*Qeyd*: Sorğuda eksperimental siniflərə təhkim olunmuş 25; kontrol siniflərə təhkim olunmuş 26 təcrübəçi tələbə iştirak etmişdir.

Eksperimental və kontrol siniflərə təhkim olunmuş təcrübəçi tələbələrin yenidəntərbiyəyə ehtiyacları olan yeniyetmələrlə işə hazırlıq səviyyələrinin öyrənilməsi vəziyyətə aydınlıq gətirdi.

Beləliklə, aparılmış məqsədyönlü, sistemli, planauyğun şəkildə təcrübəçi tələbələrin pedaqoji təcrübə dövründə yeniyetmələr, xüsusən yenidəntərbiyəyə ehtiyacı olan şagirdlərlə apardıqları işlər öz səmərəsini vermiş, yeniyetmələr mənfi davranış, mənfi rəftar və ünsiyyət

təcrübəsindən azad olmuş, özünütərbiyə, özünütəhsil, özünütəkmilləşmə ilə məşğul olmuşlar.

Tədqiqatla bağlı bir sıra mühüm **nəticələr** alınmışdır. Onlardan bəzilərini diqqət mərkəzinə gətirək:

1. Yenidəntərbiyə islahetmə anlayışı ilə sıx surətdə bağlıdır. İslahetmə mürəkkəb psixoloji prosesdir. O, şəxsiyyətin yenidənqurulmasına, özünü düzəltməsinə yönəlir. Bu özünütəkmilləşdirmə prosesi yenidəntərbiyənin, tərbiyə və özünütərbiyənin təsiri altında öz şüurunda və davranışındakı kənaraçıxmaları aradan qaldırmaqla müşayiət olunur.

2. Tədqiqatdan görünür ki, uğursuz ailənin yeniyetməyə mənfi təsiri, sosial mühitin və məktəbin tərbiyə işinə laqeydliyi deviant davranışının meydana gəlmə səbəblərindəndir.

3. Ata-anaların pedaqoji baxımdan səriştəsizliyi, pedaqoji maariflənmə ilə əhatə olunmamaları, valideynlər arasında ixtilafların olması, uşaqların tərbiyəsi ilə əlaqədar ailə üzvləri arasında vahid tələbin olmaması, tərbiyədən və yeniyetməni şəxsiyyətinin inkişafından ötrü zəruri şəraitin yaradılmaması, valideynlərin etik qaydaları gözləməmələri, onların öz davranışlarındakı, rəftar və ünsiyyətlərindəki xoşagəlməz hallar uşağa pis təsir göstərir, onun düzgün tərbiyə almasına maneçilik törədir.

4. Tədqiqat belə bir qənaətə gəlməyimizə əsas verdi ki, yenidəntərbiyəyə ehtiyacı olan, pedaqoji cəhətdən baxımsız yeniyetmələr üçün küçə və məhəllə mühiti çox zaman asudə vaxtın keçirilməsindən ötrü əlverişli məkan sayılır.

5. Tədqiqatdan görünür ki, yenidəntərbiyəyə ehtiyacı olan yeniyetmələrin qeyri-formal qrupu seçməsinin əsas səbəblərindən biri də ailədə və məktəbdə onları razı salan şəraitin olmamasıdır.

6. "Çətin" yeniyetmələrin meydana gəlməsində ailə ilə yanaşı məktəbin də özünəməxsus günahı vardır.

7. İnstitut və universitetlərdə keçilən bir çox fənlərin (o cümlədən pedaqogika və psixologiya) təhsilalanların yenidəntərbiyəsi baxımından imkanları vardır.

8. Yeniyetmələrin yenidəntərbiyəsində məktəb, ailə və ictimaiyyətlə, polis idarələrinin yetkinlik yaşına çatmamışların işləri üzrə müfəttişliklə yanaşı ümumtəhsil məktəblərində ixtisas üzrə istehsalat (pedaqoji) təcrübəsi keçən tələbələrin də böyük rolu vardır.

9. Təcrübəçi tələbələr yenidəntərbiyəyə ehtiyacı olan yeniyetmələrlə təlim-tərbiyə işlərini ixtisas üzrə istehsalat (pedaqoji) təcrübəsi dövründə

aparırlar. Bu iş iki istiqamətdə reallaşır: 1. Təlim prosesində; 2. Sinifdənxaric təhsil-tərbiyə işləri zamanı.

Tədqiqatın məzmunu, əsas elmi ideyaları və alınan nəticələri iddiaçının nəşr etdirdiyi aşağıdakı **əsərlərində** öz əksini tapmışdır:

1. Tələbələrin yenidəntərbiyəyə ehtiyacı olan yeniyetmələrlə aparılan işlərə cəlb olunmaları / "Təhsil sistemində gənç nəslin təlim-tərbiyəsi üzrə işin təşkili və onun yaxşılaşdlrılması istigamətləri" mövzusunda respublika elmi konfransının materialları. Bakı, 28 iyun 2012-ci il, s.158-160
2. Yenidəntərbiyəyə ehtiyaç olan yeniyetmələrlə aparılan işlərin monitorinqi və qiymətləndirilməsi / "Təhsil sistemində monitorinq və qiymətləndirilmənin yeri" mövzusunda respublika elmi-praktik konfransının materialları. Bakı, 27 aprel 2012 il, s. 162-165
3. "Çətin" yeniyetmələrlə tələbələrin apardıqları sinifdənxaric iş // Gəncə Dövlət Universitetinin Elmi əsərləri, 2014, № 3, s. 260-264
4. Внеклассная работа студентов в период педагогической практики с подростками, нуждающимися в перевоспитании // Бишкек, 2014, № 1, с.95-98
5. Ali məktəblərdə pedaqogikanın tədrisi prosesində tələbələrin yenidəntərbiyəyə ehtiyacı olan yeniyetmələrlə dərsdənkənar işə hazırlanması imkanları // Azərbaycan Respublikasının Təhsil Proeblemləri İnstitutunun Elmi əsərləri, 2015, № 1, s. 164-167
6. Pedaqoji təcrübə dövründə tələbələrin yenidəntərbiyəyə ehtiyacı olan yeniyetmələri öyrənmələri // Gəncə Dövlət Universitetinin Elmi əsərləri, 2015, № 2, s. 254-258
7. Ali məktəblərdə psixologiyanın tədrisi prosesində tələbələrin yenidəntərbiyəyə ehtiyacı olan yeniyetmələrlə təlim-tərbiyə işlərinə hazırlanması imkanları // Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunun Elmi əsərləri, 2015, № 3, s. 45-50
8. Uğursuz ailənin yenidəntərbiyəyə ehtiyacı olan yeniyetmələrə psixoloji təsiri // Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, 2018, № 6, s. 62-67

**Гюлбениз Гурбан гызы Гусейнова**

## Подготовка студентов к учебно-воспитательной работе подростков, нуждающихся в перевоспитании

### Резюме

Во введении обоснована актуальность проблемы, нашли свое отражение уровень разработки, объект, предмет, цели и задачи, гипотеза, методологические основы, научная новизна, теоретическое и практическое значение исследования, выводимые на защиту положения.

Исследовательская работа состоит из введения, из трех глав, охватывающих 9 подглав, заключения и списка использованной литературы.

Первая глава диссертации называется «Теоретические основы работы по перевоспитанию подростков». Эта глава состоит из четырех подглав. В отдельных подглавах перевоспитание подростков рассматривается как педагого-психологическая и социальная проблема; отрицательное влияние на подростка неблагополучных семей как девиантное поведение; социальная среда как фактор влияния на формы и уровни появления девиантного поведения.

II глава диссертации называется «Теоретическая и практическая подготовка студентов к учебно-воспитательной работе подростков, нуждающихся в перевоспитании». Эта глава состоит из двух подглав. В этих подглавах останавливается на вопросах подготовки студентов на работы, которые будут проводиться с подростками, нуждающимися в перевоспитании, в учебном процессе и в процессе мероприятий вне аудитории в вузе.

III глава произведения называется «Учебно-воспитательные работы студентов с подростками, нуждающимися в перевоспитании, во время производственной (педагогической) практики по специальности» и состоит из трех подглав. В главе проводится анализ и организация работ, проводимые студентами с подростками, нуждающимися в перевоспитании, в учебном процессе, а также, внеклассных учебно-воспитательных работ с подростками, нуждающимися в перевоспитании, во время производственной (педагогической) практики по специальности. В главе отдельная полу глава посвящена на организацию, проведению и результатов эксперимента.

Диссертация завершается заключением и списком использованной литературы.

**Huseynova Gulbaniz Gurban**

## Preparation students for educational work of adolescents in need of re-education

### Summary

In the introduction, the relevance of the problem is substantiated, the level of development, the object, subject, goals and objectives, hypothesis, methodological foundations, scientific novelty, theoretical and practical significance of the research, which are taken to protect the situation, are reflected.

The research work consists of introduction, of three chapters, covering 9 half-heads, conclusion and list of references.

The first chapter of the thesis is called "Theoretical foundations of the work on the re-education of teenagers". This chapter consists of four half-heads. In separate half-heads, re-education of adolescents is considered as a teacher-psychological and social problem; the negative impact on the adolescent of dysfunctional families as deviant behavior; social environment as a factor in influencing the forms and levels of appearance of deviant behavior.

Chapter II of the thesis is called "Theoretical and practical preparation of students for educational work of adolescents who need re-education." This chapter consists of two half-heads. In these half-heads she focuses on the issues of preparing students for work that will be conducted with adolescents in need of re-education, in the educational process and in the process of activities outside the classroom at the university.

The third chapter of the work is called "Educational work of students with adolescents in need of re-education, during industrial (pedagogical) practice in the specialty" and consists of three half-heads. The chapter analyzes and organizes the work carried out by students with adolescents in need of re-education, in the educational process, as well as out-of-class educational work with adolescents in need of re-education, during industrial (pedagogical) practice in the specialty. In the chapter, a separate semi-chapter is devoted to the organization, conduct, and results of the experiment.

The thesis ends with the conclusion and list of references.

МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ
ПЕДАГОГИЧЕСКИЙ УНИВЕРСИТЕТ

*На правах рукописи*

**ГЮЛБЕНИЗ ГУРБАН гызы ГУСЕЙНОВА**

# Подготовка студентов к учебно-воспитательной работе подростков, нуждающихся в перевоспитании

**5804.01 – общая педагогика, история педагогики и образования**

# АВТОРЕФЕРАТ

**диссертации на соискание учёной степени доктора философии по педагогике**

**Баку – 2018**